# TÜRKAY

aylıq ədəbiyyat dərgisi



1/10/2023

## BU SAYIMIZDA


Aygün Rəhimli Akbaba / Qarabağ / 3

Səhər Xiyavi / Hörumçək Kişi / 4

Hayidə Buluki Özləm / Yoxla Məni / 5

Mərziyyə Səlahəddin / Əllərin / 6

Bənövşə Mahmudqızı / Mən də İnsanam / 7

Dilan Keleş / Sebebi Sensin / 8

Şəbnəm Tohidi / Sənətin Gücü / 9

Elmira Mahalqızı / Ey Nurlu Şəhərim / 10

Tərané Arifqızı / Lütviyyə Əsgərzadə ile Turan Sevdasını Üzerine / 11

Beyhan Gözükara / İhtiyacım Var / 17

Nailə Şahverdi / Yuxu Ver Mənə / 18

Sevinc Azadlı / Uşaq İllərim / 19

Mahirə Nağıqızı / Sevərəm Ömrüm Boyu / 20

Eluca Atali / Böyükdüm / 21

Rânâ İslam Değirmenci / Gün Doğmadan Ay Balam -1- / 22

Mələk İsmayıl / Ay Şuşa / 24



**TÜRKAY**

**aylıq ədəbiyyat dərgisi**

**Baş redaktor** Lütviyyə Əsgərzadə

**Məsul katib** Tayyib Atmaca **Sosial yayına məsul** Sona İntizar

**Üz qabıgı rəsmi** Buruno Çerboni

**E mail** turkayedebiyat@gmail.com

**Say 10 Oktyab 2023**

## Aygün Rəhimli Akbaba

# Qarabağ

Ana qucağımsan, cənnət məkanım,
Ata ocağımsan, külü-cahanım.
Aldığım nəfəsim, damarda qanım,
Dünənim, bugünüm, tacım Qarabağ.

Yaralı Xocalım, qanlı Xaçınım,
Şuşam, Kəlbəcərim, doğma, Laçınım.
Əsirim, itkinim, evsiz, qaçqınım,
Otuz il qanayan, acım Qarabağ!!

Topxanam, Qar-Qarım, Xarı- bülbülüm,
Cıdırda yurd salan bənövşə gülüm,
İsa bulağıyla, Qırxqızım, cölüm,
Yaylağım, düzüm, yamacım, Qarabağ!!

Ağsaqqal, ağbirçək, həyat məktəbim,
Sədaqət timsalı Həcərim, Nəbim,
Eşqim, məhəbbətim, ilhamım, təbim,
Səbrim, dəyanətim, gücüm Qarabağ!!

Qoca Qafqaza söykəyib bir yanın,
Qarabağ atıdır fəxri dünyanın.
Ormanlar gözəli Cüyür, Ceyranım,
Qartalım, Şahin, Turacım Qarabağ!!

Səmənim, Yemliyim, otum alağım.
Həkərim, Tərtərcayım, Şahbulağım,
Hər çiçəyi dərman obam, oylağım,
Təbibim, dərdə əlacım Qarabağ!!

Almasın, heyvasın, narın üzdüyüm,
Əməkömənciдən muncuq düzdüyüm.
Tənha oynadığım, tənha gəzdiyim,
Olmayan qardaşım, bacım Qarabağ!!

Babamdan xatirə, qazma kürəyim,
Uşaqlıq illərim, vuran ürəyim.
Nənəm bişirdiyi, kətəm, çörəyim,
Ocağım, təndirim, sacım Qarabağ!!

Yuvam, İmarətim, Muğam beşiyim.
Ağdamım, Çəmənlim, kəndim keşiyim,
Rəhimli axırım, evim, eşiyim,
Son durağım, tezim, gecim Qarabağ!

## Səhər Xiyavi

### Hörumçək Kişi

-Ata mən uçun yelləncək asirsan?

kişi səksənib lapbadan ikinci qat kerayə evlərinin eyvanına baxdı.

Özünü itirdi. Əlləri əsib, bir yumaq ip əlindən yerə duşdu. Baxışını bir an altı yaşlı qızından qaçırıb, qabarlı əlinin arxasi ilə gözlərində ki gilələnmiş yaşı sildi.

Qəhər boğazını kəsirdi. Bir şəkil özünü toparlayıb yenidən yuxarı baxdi:

- Hə, sənə yelləncək asırdım Banu çiçəyim, nə tez yuxudan oyanmısan bir dənəm?!

Qızın sarışın yumşacıq saçları səhər yelində, ağ uzundə oynaqlayıdı.

Mavi gözləri göyü, gözlərində ki qıgılcımlar ulduzları yarışa çagırırdı. Uşaq bir parça yaşam idi.

Kişi sanki birinci dəfə görən kimi qızın üzüne donuxmuşdu.

O nədən indiyə kimi tanrıdan bəxş olan bu gözəl-göyçək saglam varlığı görməmişdi?!

Yoxsa ondan etinasız keçmişdi?!

Doğru ki o yaşamın sərt uzundən bezmişdi, çır-çıngıllarda yerimək ayğını yaralayıb, onu taqətdən salmişdi. Bahalıq, işsizlik, pulsuzluq, ev sahibinin şəmatətli sözləri, arvad-uşaq şərməndəligi, bir cılız gövdədə daha nə qədər taqət olar ki?!

Nə vaxt idi sinirleri pozulmuşdu. Gecələr fikirdən, gussədən yata bilmirdi. Pulsuzluqdan əsəb duxturuna da gedə bilmirdi.

Çox fikirləşib özunu xəlas etmək istəyirdi. Buna görə də ip hazırlığı görmüşdü. Bu gün ailəsi ayılmamışdan qabaq özünü gilənar agaclarından asacaqdi. Bir kərəlik yaşamın həm- qəmindan qurtaracaqdı. Amma qızının görünüşü əl-qolunu sustaltdı.

-Mən axmaq heç məndən sonra ailəmin başına nə gələcəyinə fikirləşməmişəm?!

Bu körpə məndən sonra necə olacaqmı?!

O yazıq qızı məgər sevgi dolu ürəklə kəndən qaçırmadım mı?!

Onu xoşbəxt etməyə söz vermədim mi?!

Kişi də bu qədər alax-bulax, iradəsiz olar mi?!

Mən hələ gəncəm, qollarımın şir kimi gücü var. Şükürler olsun, ailəmin çörəyini daşdan belə çıxara bilərəm.

Özündə yeni bir güc hiss edib, qızına yelləncək asdı. Sonra isə onunla baş- başa qoysun deyə, belində ki qaylın keş qayışı açdı. O qayışı agır daşlar, kərpiclər, yüklər belini sərpməsin deyə, iş vaxti belinə baglayırdı.

Keş qayışı da o biri agaca dügünləyib iki əlli yapışıbb huuu....huuu... deyə yelləndi.

Qiz dörd göz atasının oyunbazlığına heyrətlə baxırdı.

Balaca əllərini agzina tutub narin- narin gulurdu.

Dəhlizin qapısını açıb:

Ana...ana... gəl bax, atam hörumçək kişi olub.... atam hörumçək kişi olub...- çığırdı.

Kişi yellənərək urəklənib:

-Atan kiçicik gülüşlərinə qurban çiçəyim--deyirdi.

Bəlkə yarım saat dəli bazlığı davam etdi. Özüne də gülmək tütmüşdü.

Sonra aşaği endi.

-Mən təzə çörək almağa gedirəm. Anana de səmavarı yandırsın. Qalanına da Allah kərim di. Əlini ağzına aparib qızına şip-şirin bir öpücük göndərdi.

Qiz atasının Allah necə kərimdir dediyini düşünmədi amma kiçik addımlarla, sevincək, anasını oyatmaq uçun evə sari qaçdı.

Yol uzunu gözundə sanki dünya təzələnmişdi. Qaranlıq urəyindən köçup umud gunəşi köksündə parlayırdı. Dağı dağ üstüne qoymaga qadir olduğunu sanirdi.

İndi də hər dən o səhərdə ki axmaqca təsmimi yadına düşəndə, özünü danlayır, həm də dəlicə oyunbazlıgını xatırlayarkən gülümsəyir.

O düşünüb həyat bir saf yol deyil, çalaçuxuru, eniş- yoxuşu danılmazdı. Amma yaşam o qədər gözəldi ki yaşamaga və yaşatmaga dəyər.

Bizlər yaranmışıqsa, hər nəyin rəgminə tanrı və ana təbiət bizim varlığımızı istəyib. Bu varlıgı zədələmək suçdur.

Hər müşküle ölamdən başqa çarə var.

Yalniz ölüm çarəsizdi.

## Hayidə Buluki Özləm

# Yoxla Məni

Sevgin tükənməzdir əyər
Ara sıra yoxla məni
Sevgiyə saxlasan dəyər
Ara sıra yoxla məni

Əzilmişəm bu şəhərdə
Üzülmüşəm çox qəhərdə
Barı çalış bir təhərdə
Ara sıra yoxla məni

Bura özgürlük əsməyir
İntizar səbri kəsməyir
Görürsən ömrüm əsnəyir
Ara sıra yoxla məni

Burda bəşər şər törədir
Tanrısı gözün bərədir
Bu yaşam ki bir kərədir
Ara sıra yoxla məni

Burda bulud döşü yara
Susuz dəniz gəlib zara
Canım köçməmiş məzara
Ara sıra yoxla məni

## Mərziyyə Səlahəddin

# Əllərin

Nə yaxşı ki, əllərin
Hərdən xatırlar məni .
Bəzən dözməz toxanar
Telefon dəstəyinə.
Unutmaz, arar məni.
Könlümün çırpıntısın
Duyan ilk sirdaşım
Saçlarıma sığal verən
Tel darağım əllərin..
Heç unutmasın məni
Bir gün tənhalığda-
Bir qapı arxasında
Kimsəsiz ölsəm
Açıq qalmasın gözlərim
Məni unutmayan əllərin
Qapayar gözlərimi,
Mən de son dəfə
Sənə baxmış kimi
Bəxtəvərcəsinə
Yumaram gözlərimi....

Bənövşə Mahmudqızı

# Mən də İnsanam

Əksilirəm zərrə-zərrə
Çox yaşadım bu “qədər”lə.
Ümid etdim,
Bir gün bitər kədərlər...
Mən bitirəm,
Mən gedirəm,
Amma onlar bitmirlər.
Kədərlər, kədərlər...
Ey insanlar, verdiyiniz zəhərlər
Yetir ancaq qəhərlə boğmağa.
Qoymur gələcəyə baxmağa.
Mənim kimi bir axmağa
Bəlkə “ azdır “ deyirsiz,
Bəlkə haqlısız,
Bəlkə deyilsiz.
Xatırladım,
Mənim də var bir adım,
Xatırladım, mən də insanam.
Bəlkə deyiləm, yox sanılan,
Mən özümü yox sayıram,
Sizin üçün yaşayıram.
Bəlkə deyiləm, yox sanılan,
Bəlkə bir gün anılam,
Öldükdən sonra...
İstəmirəm, anlaşılam,
Öldükdən sonra...
Məni indi dərk edin,
Məni indi anlayın.
Sığallayın,
Qucaqlayın.
Səhvlərimi bağışlayın,
Düzlərimi alqışlayın.
Anlayın, anlayın,
Mən də insanam.

## Dilan Keleş

# Sebebi Sensin

Ellerin yâri olduysan
Daha da gülmüyorsa yüzüm
Donuk ifadelerle geziyorsam
Kâh orada kâh burada
Sebebi sensin

Yüzüm buz gibi bakışına kestiyse
Senden başkasını sevmeyecekse gönlüm
Hıçkırıklarım çarpacaksa
Suratına ansızın
Sebebi sensin

Kolum kanadım kırıksa eğer
Gülüşlerim yaralıysa
Avutuyorsa ölüm beni
Sebebi sensin.

## Şəbnəm Tohidi

# Sənətin Gücü

Biri varmış, biri yoxmuş, bir şah və onun gözünün ağı-qarası bir oğlu varmış. Şah qocalmışdı və oğlunu evləndirmək qərarına gəlmişdi. Şahın oğlu dedi:

- İzn ver, ölkəni gəzib dolanım, qızı özüm seçim!

Şah dedi:

- İzn sənindir!

Şahzadə yola düşdü. Az gəzdi, çox gəzdi, bütün şəhərləri, kəndləri gəzdi, amma özünə qız seçə bilmədi. Yalnız yoxsul bir kənddə, kəndin lap kənarında, ən kasıb evdə o gözəl bir qız gördü. Qız o qədər gözəl idi ki, aya deyirdi sən çıxma mən çıxım, günə deyirdi sən çıxma mən çıxım! Bir gönüldən min gönülə o qıza aşiq oldu. Şahzadə ona dedi:

- Mənimlə evlənərsənmi!

Qız soruşdu:

- Denən görüm, hansı sənətin sahibisən?

Oğlan cavab verdi:

- Hiç bir sənət əlimdən gəlmir, mən şahzadəyəm!

- Hiç bir sənət sahibi deyilsənsə, vay halına! - dedi qız. - Şahzadə olmaq sənət deyil! Bu gün sən şahsan, sabah yox, onda özünə necə çörək pulu qazanacaqsan? Get bir sənət öyrən, yalnız o zaman səninlə evlənərəm.

Şahzadə qəm dəryasına qərq oldu. Tez bir zamanda hansı sənəti öyrənəcəyini bilmirdi. Atasının yanına gəldi və əhvalatı ona danışdı:

- Mən bir qız seçmişəm. Dünyada onun tayı-bərabəri yoxdur. Lakin o mənə gəlməyə razılıq vermədi. “Əvvəlcə, - dedi o, - get bir sənət öyrən!” O qızdan əl çəkə bilmərəm. Gözüm ondan başqasını görmür. Ondan başqası mənə gərək deyil. Kömək edin, bir sənət öyrənim.

Şah bütün sənətkarları hüzuruna çağırdı. Sənətkarlar gəldilər. Xarratlar, pinəçilər, dərzilər, bənnalar, ocaqçılar. Şah xarratdan soruşdu:

- Neçə müddətə oğluma sənətini öyrədə bilərsən?:

- Beş ilə, - deyə xarrat cavab verdi.

- Eh! Beş ilə o qız ərə gedər, məni o qədər gözləməz, - dedi şahzadə.

O birilərindən soruşdular:

- Kim şahzadəyə ən qısa müddətə sənət öyrədə bilər?

Pinəçi dedi:

- Dörd ilə öyrədərəm!

Bənna dedi:

- Üç ilə öyrədərəm!

Ocaqçı dedi:

- İki ilə öyrədərəm!

Nəhayət bir qoca irəli çıxdı və dedi:

- Mən keçə basıram və naxışlı nəməd düzəldirəm. Üç günə şahzadəyə sənətimi öyrədərəm.

Şahzadə sevindi, ustasının yanına getdi. Üç günə keçə basmağı və müxtəlif nəmədlər - atlılar üçün uzun, xovlu nəmədlər, piyadalar üçün qısa, hamar, tikişsiz nəmədlər düzəltməyi öyrəndi. Bundan sonra şahzadə qızın yanına yollandı:

- Yenə niyə gəlmisən? - deyə qız soruşdu.

- Səni elçiləməyə.

- Sənət öyrənmisən?

- Öyrənmişəm: keçədən nəməd düzəldə bilirəm.

- Bu sənət də gözəldi! - dedi qız. - İndi sənə gələrəm!

Onlar evlənib şad-xürrəm yaşamağa başladılar. Çox keçmədən qoca şah dünyasını dəyişdi. Şahzadə şahlıq etməyə başladı. Günlərin bir günü o öz ölkəsini gəzmək istədi. Kimin necə yaşadığını, kimin nəyə sevindiyini, kimin nəyə kədərləndiyini, onun barəsində danışılanları öyrənmək istədi. Təğyiri-libas olub yola düzəldi. Az getdi, düz getdi, gəlib bir şəhərə yetişdi. Acmışdı, yemək istədi. Bir aş pişirən yer tapdı, içəri girdi və dedi:

- Ey xeyirxah insanlar, məni yedizdirin!

Aşxana sahibi onu nəzakətlə qarşıladı, yemək verdi. Sən demə bunlar adamyeyən quldurlar imiş. Onlar şahı zirzəmiyə yaxın aparıb qapını açdılar.

- Bu zirzəmidə nə var? - deyə şah soruşdu.

- Gir, özün bax! - deyə quldurlar onu içəri itələdilər.

Şah ətrafına baxındı, gördü ki, zirzəmidə daha üç nəfər var.

- Siz burda niyə oturmusuz? - deyə şah soruşdu. - Sizi niyə saxlayırlar?

- Bu adamyeyən quldurlar bizi öldürüb yeyəcəklər, - deyə əsirlər ona cavab verdi. - Səni də bu aqibət gözləyir.

Şahın canına qorxu düşdü, bilmədi nə etsin. Quldurlar üç nəfəri öldürdülər. Şahın növbəsi çatdı. Şah adamyeyən quldurlara dedi:

- Məni öldürməyin! Mən sizə elə nəməd düzəldərəm ki, onu min tümənə sata bilərsiniz! Onu birbaş şahın gənc arvadının yanına aparın, o soruşmadan onu alacaq.

Quldurlar sevindilər. Yun gətirdilər. Şah nəmədi düzəltməyə başladı. Düzəlib qurtardı, ona elə naxışlar vurdu ki, iki göz istəyirdi tamaşasına dursun! Naxışların arasında bu sözləri tikdi: "Filan şəhərdə, filan evdə, zirzəmidə adamyeyən quldurların əsirliyindəyəm. İki günə kimi köməyimə yetişməsəniz, məni öldürəcəklər".

Bir quldur nəmədi götürdü, çiyninə atıb şəhərə getdi. Şah sarayına, şahın arvadının yanına apardı, satmaq istədi. Şah arvadı nəmədi nəzərdən keçirməyə başladı: naxışların arasında tikilən sözləri oxudu. Nəmədi min tümənə aldı və qulduru buraxdı. Sonra döyüşçülərini çağırdı, quldurun arxasınca - ərini qurtarmağa yola düşdü. Quldur hiç bir şeydən xəbəri olmadan irəlidə, şahın arvadı isə döyüşçülər ilə arxada gedirdi! Gəlib çatdılar. Quldurların evini mühasirəyə aldılar, heç kim qaça bilmədi! Döyüşçülər evə hücum çəkdilər, bütün quldurları tutub öldürdülər. Zirzəmiyə düşüb şahı azad etdilər və arvadının yanına apardılar.

- Görürsənmi! - dedi arvadı. - Əgər bu sənəti öyrənməsəydin, sənin şahlığın köməyinə çatmazdı! səni qoyun kimi kəsib yeyəcəkdilər.

- Haqlısan, - deyə şah cavab verdi, - belə olmasaydı, indi mən sağ qalmazdım! Məni ancaq sənətim xilas etdi!

## Elmira Mahalqızı

# Ey Nurlu Şəhərim

Yenə xəyallarım seyrinə çıxıb,
Dağ ,dərə rəngini dəyişib bu yaz...
Bu cığır darıxib,bu iz darıxıb,
Məhəbbət dediyim zülmətə sığmaz!

Ana təbiəti Uca Yaradan,
Bir əsər yaradıb, bu yer üzünə.
Xınalı qayalıq güllu don geyib,
Yam-yaşıl sürməni çəkib gözünə...

Mənim duyğularım susmaz bu anda,
Yağan yağışlar da yuyur telimi,
Təbiət önündə güzgülənirəm.
Ruhumda görürəm işıq selini.

Şerlə qanadlandın ,ey İlham pərim!
Könlimün ətrini dünyaya yaydın!
Ömür təzələyir gözəllikləri,
Ey nurlu şəhərim, gözlərin aydın!

# Lütviyyə Əsgərzadə ile Turan Sevdasını Üzerine

## Konuşturan: Təranə Arifqızı

Həmsöhbətim filologiya elmləri doktoru, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun *Yeni dövr Azərbaycan ədəbiyyatı* şöbəsinin baş elmi işçisi (2020), Azərbaycan Jurnalistlər (2002) və Yazıçılar Birliklərinin üzvü (2005), *Türkay* aylıq Ədəbiyyat dərgisinin redaktoru olan Lütviyyə Əsgərzadə Içindəki xəlqiliyi, türkçülüyü gördüyü işlərlə ortaya qoyan ziyalı xanım, dəyərli alimdir.

***Lütvyyə xanım Nuh yurdunun övladı olaraq sizi daha yaxından tanıyaq.***

Sizin də vurğuladığınız kimi Naxçıvan şəhərində anadan olmuşam. Eynəli bəy Sultanov adına 7№ li orta məktəbini bitirmişəm. 1980-ci ildə Naxçıvan Dövlət Pedoqoji İnstitutuna, indiki Naxçıvan Dövlət Universitetinin Dil-Ədəbiyyat fakültəsinə daxil olmuşam. Universiteti bitirdikdən sonra (1985) Naxçıvan şəhər 5 №-li kitabxanasında zal müdiri, böyük kitabxanaçı vəzifəsində çalışmışam. Naxçıvan şəhərində fəaliyyət göstərən xüsusi tipli məktəblərdə; Naxçıvan şəhər “Xanım qızlar” pansionunda və Cəmşid Naxçıvanski adına hərbi məktəbdə, indiki Heydər Əliyev liseyində dil-ədəbiyyat müəllimi kimi fəaliyyət göstərmişəm. 1999-cu ildən Naxçıvanda yenicə yaradılmış “Heydər Əliyev muzeyi”ndə əvvəlcə ekskursovood, 2000-ci ildən direktor vəzifəsində çalışmışam. 2006-cı ilədən AMEA Naxçıvan Bölməsində, 2013-cü ildən AMEA-nın Ədəbiyyat institutunda çalışıram.

***Bir azərbaycanlı olaraq içinizdəki Turan sevdasını kimə borclusunuz?***

İçimdəki Turan sevdasını ilk öncə anama, sonra mütəfəkkir şairimiz Hüseyn Cavid əfəndiyə borcluyam.

Bizim nəslin uşaqlıq və yeniyetməlik dövrü sovet hakimiyyəti dönəminə düşdüyü üçün Sovet ideologiyası ilə böyüyən uşaqlardanam. Məktəbə qədəm qoyan gündən ənənəvi olaraq öncə yaxamıza üzərində Leninin şəkli olan nişan vururdular, olurduq oktyabryat (oktyabr uşaqları). Sonra pioner, daha sonra komsomol. Keçmiş SSRİ-ni böyük vətənimiz, Lenini babamız bilirdik. Dönəm şairlərinin Leninə, partiyaya yazdığı şeirləri əzbərləyirdik. Yəni nə türk, nə də türklük haqqında heç bir təsəvvürümüz yox idi. Mən ilk dəfə türk sözünü anamdan bir təsadüf nəticəsində eşitmişdim. Bir haşiyə çıxmaq istəyirəm. Bilirsiniz də, bolşeviklər Azərbaycanı yalnız ərazi olaraq işğal etməmişdi. Dibdən və dərindən təmizləmə aparmış, milli ənənələrimizə, musiqimizə, dilimizə, dinimizə, ən əsası əlifbamıza müdaxilələr etmişdi. Bir əsrdə dəfələrlə əlifbamız dəyişilmişdi. 1938-ci ildə Azərbaycan türkləri Krilə keçmişdi.

Heç yadımdan çıxmaz, qonşumuz Sara xala bir gün bizə gəldi. Paltarının altında gizlətdiyi kağızı çıxarıb anama verdi; Xavər, eşitdim ki, latın dilində oxuya bilirsən. Türkiyədən qohumlar bunu anama göndəriblər, oxuya bilmirik. Qorxudan heç kimə göstərməyə cəsarət etmirik. Qurban olum, bu məktubu oxuya bilərsən? Amma heç kim bilməsin. Anam məktubu o qədər alçaq bir səslə oxudu ki, sanki divarın o biri tərəfində kimsə onu eşidirdi. Mən 6-7 yaşlı uşaq idim. Anamın məktubu oxuyanda necə qorxduğunu heç vaxt unutmadım. Anamdan soruşdum; Ana, Türkiyə haradadır? Türklər kimlərdir? Anam alçaq səslə dedi; Qızım, diqqətli ol. Heç kimə bir söz demə. Biz türkük. Türklər bizim dil və din qardaşlarımızdır.”

Bir dəfə də anam bizə “Əsli və Kərəm” dastanını nağıl edirdi. Hərdən də arada mahnı üstündə oxuyurdu: “Ərzurumun gədiyinə varanda, onda gördüm lopa-lopa qar gəlir.” Onda da anamda soruşmuşdum, - Ərzurum haradır?

Anam da ehtiyatla nağıla, dastana qatıb bizə türkdən danışmışıdı. Böyüyəndə anamı qorxduğu üçün qınamadım. Anam qorxmaq-

da haqlı idi. Bizə “Böyük Vətən” kimi aşılanan SSRİ-də heç kim özünə türk deyə bilmirdi. İlk dəfə Türkiyə və türk sözünü anamdan duyduğum üçün anama borcluyam.

Bilirsiniz, bizim vaxtımızda dərsliklərə türkçülərin, turançıların əsərləri tədris olunmurdu. Nə Əli bəy Hüseynzadədən, Hüseyn Caviddən, nə Məhəmməd Hadidən xəbərimiz vardı. 80-ci illərdə ilk dəfə Hüseyn Cavidin adını akademik Rafael Hüseynovdan televiziya proqramında duydum. Səhvetmirəmsə “Səhər görüşləri” idi. Sonra onun “Vaxtdan uca” əsərini kitab mağazasında axtarmağa başladım. O zaman Naxçıvanda böyük bir kitab mağazası vardı, oradan tapıb aldım. O kitabla Hüseyn Cavid işığına, Hüseyn Cavid ruhuna büründüm, desəm yalan olmaz. Krım yazıçısı Cengiz Dağcı müsahibələrindən birində deyir: “Vətən əslində dildən ibarətdir.” Cavidin özü türk, dili türkcə idi, yəni Cavid geniş anlamda vətəndi-Turandır. Hüseyn Cavidi oxuyub türkcəni öyrənməmək, sevməmək mümkün deyil. Türk ruhunun, türkçülük fəlsəfəsinin, türk kimliyinin, türk dilinin sovet cəmiyyətində yaşatılmasında Cavidin rolu misilsizdir. Mən də içimdəki Turan sevdasına görə mütəfəkkir Cavidə borcluyam.

***İstərdim, bu günkü söhbətimizi Turan yolçuluğunda yol alan insanlardan, gördüyünüz və görmək istədiyiniz işlərdən danışaraq davam etdirək.***

Hələ 1930-cu illərdə Mustafa Kamal Atatürk böyük uzaqgörənliklə demişdir; “Bu gün Sovet Rusiyası bizim dostumuz, qonşumuz, müttəfiqimizdir. Dövlət olaraq bu dostluğa ehtiyacımız var! Amma sabah nə olacağını heç kim proqnozlaşdıra bilməz. O, Osmanlı İmperiyası kimi, Avstriya-Macarıstan İmperiyası kimi parçalana bilər! Bu gün əlində möhkəm tutduğu Millətlər onun əlindən sürüşüb çıxa bilər. Dünya yeni dəngəyə çata bilər!... Onda Türkiyə nə edəcəyini bilməlidir! Bu dostumuzun rəhbərliyi altında yüzlərlə dili bir, dini bir qardaşımız var. Biz onları dəstəkləməyə hazır olmalıyıq! “Hazır olmaq” sadəcə səssizcə o günü gözləmək deyil, “hazırlaşmaq lazımdır”.

Millətlər buna necə hazırlaşır? Mənəvii körpülərinizi möhkəm saxlamaqla! Dil bir körpüdür, inanc bir körpüdür, tarix bir körpüdür! Bu gün dil, adət-ənənə, tarix baxımından bu cəmiyyətlərdən ayrı düşmüşük, çox uzaqlara düşmüşük! Doğrudur bizim yerimiz, yoxsa onların olduğu yer? Bunu hesablamağın bir faydası yoxdur!... Onların bizə yaxınlaşmasını gözləyə bilmərik; Onlara yaxınlaşmaq lazımdır... Tarixi bağı qurmaq lazımdır... Folklor bağı qurmaq lazımdır... Dil bağı qurmaq lazımdır...” Türk birliği düşüncəsini millətinin şüuraltına yerləşdirən Hüseyn Cavid, ortak türk gələcəyindən ortak türk keçmişinə bağlı düşüncələrində Atatürklə eyni düşüncəni paylaşır.

Atatürkün dediyi kimi, aramızda çoxlu mənəvi körpülər var və bu körpülərdən ən önəmlisi dil, inanc, tarix və mədəniyyət körpüsüdür. Bundan əlavə, millətləri yaşadan ən mühüm ünsürün mədəniyyət və dil olduğu məlum həqiqətdir. Hüseyn Cavidin bütün yaradıcılığı bu körpülərin qurulmasına xidmət edir. Bu gün bu siyasət dövlət səviyyəsində aparılır. Türk dövlətləri bu sahədə müştərək işlər görür. Kültür, dil, folklor, tarix bağı qurulur.

***2023- cü ildə Turan yolunda daha bir gözəl, müsbət addım atıldı. Sizin baş redaktoru olduğunuz, dəyərli türk yazarı Tayyib Atmacanın fikir birliyi ilə türk qadınlarının yaradıcılığını təblig edən Türkay ədəbiyyat dərgisi işıq üzü gördü. Dərginin amacı, məqsədi nədir, Lütviyyə xanım?***

Yenə fikrimə, mütəfəkkir Cavidin misralarına söykənərək başlamaq istəyirəm. Cavid yazır:

Qadın Günəş, cocuq...Ay! Nuru Ay Günəşdən alır,
Qadınsız ölkə çabuk məhv olur, zavallı qalır.
Qadın əlilə fəqət bəxtiyar olur bu cahan…
O bir mələk... onu təqdis edər böyük yaradan.
O çox sevimli, gözəl, incə, nazlı bir xilqət,
Onun ayaqları altındadır fəqət cənnət,
Qadın gülərsə, bu issız mühitimiz güləcək,
Sürüklənən bəşəriyyət qadınla yüksələcək.

Qadın böyük qüvvədir. Qadın anadır. Bəşəriyyətin gələcəyidir. Bir alman məsəlində deyilir: “Siz mənə ağıllı və ismətli qadınlar verin, mən sizə gələcəyi bəxş edim.”

Türkay aylıq ədəbiyyat dərgisi qadınların dərgisidir. "Heca daşları" dərgisinin redaktoru Tayib Atmacanın dəstəyi ilə artıq 9-cu sayı yayınlandı. Türk dünyasının qadınları Türkay-dərgisində birləşir. Balkanlardan Qafqazlara bütün türk ölkələrinin qadın şairlərinin şeirləri, hekayə ve esseləri, resenziyaları orijinal şəkildə yayınlanır. Doğrudur, nəşr olunan materiallar türk dilində olsa da, müəyyən ləhcə fərqlərinin olduğu danılmazdır. Dərgidə tatar, qaqauz, özbək, türkmən və s. türkdilli xalqların şeirləri yazıldığı şəkildə oxuculara çatdırılır. Düşünürəm ki, bu birbaşa Ortaq Türk dilinə, Ortaq Türk mədəniyyətinə, Ortaq Türk ədəbiyyatına xidmətdir. Türkçülük ideologiyasının təşəkkül tapmasında Ziya Göyalp, Rusiyada İsmayıl bəy Kaspiralı, Azərbaycanda, bütövlükdə Türk dünyasında Azərbaycan mütəfəkkirləri Əlibəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu və Hüseyn Cavidin böyük rolu olmuş, çalışmalarını Kaspiralı "Dildə, işdə, fikirdə birlik" şüarını istiqamətdə aparmışlar. "Böyük müəllim, fəzilətli mürşid" adlandırdığı İsmayıl Kaspıralı, Əli bəy Hüseynzadə və Ziya Gökalpla eyni ideologiyaya xidmət edən Cavid hətta qızının adında bu fikri yaşatdı: Turan!

"Türkay" aylıq Ədəbiyyat dərgisi bu ideyaya, "İşdə, fikirdə, dildə birlik" ideologiyasına xidmət edir, deyə bilərik.

### *Dərgidə hansı yeniliklər gözlənilir?*

Bugünə qədər dərgimizdə qadın yazarların hekayə, şeir, resenziya, esseleri yayınlanırdı. Türkay aylıq Ədəbiyyat Dərgisinin bir qrupu var. Watsapp üzərində toplantılarımız olur. Qrupda yer gəldiyində fikir bölüşürük. Məsələn, ən son dərginin üz qabığnda verilən rəsm əsərləri haqqında müxtəlif fikirlər ifadə edildi. Qadınlarımızla belə bir fikrə gəldik ki, dərgidə qadınların yalnız şeir və hekayələrini verməklə kifayətlənməyək. Onları daha geniş ampulada təqdim edək. Qadınların yeni çap olunan əsərləri haqqında resenziyalara da yer verək, müsahibələr alaq. Düşünürəm ki, bu yaxşı ideyadır. Məsələn, dərgi yarandığı gündən burada yazıları yayınlanan xanımları tanımaq və Türk Dünyasına tanıtmaq məsuliyyətli və şərəfli bir işdir.

### *Bu dərgini qadın yazarlara yaşıl işıq kimi dəyərləndirə bilərikmi?*

Məncə, yaşıl işıq kimi dəyərləndirmək olar. Türkay Ədəbiyyat dərgisi qadınlara verilmiş bir tribunadır. Hər kəs özünü burada ifadə və təqdim edə bilər.

### *Siz Turan şairi ustad Hüseyn Cavidin araşdırmaçısı kimi tanınırsınız. Hüseyn Cavid sevgisi bizə nələri öyrədir?*

Cavid sevgisi mənə Vətən, Millət sevgisini öyrətdi. Türkcəni öyrətdi. Hüseyn Cavidi sevmək, Turanı sevməkdir. Hüseyn Cavidi sevmək Türkü sevməkdir.

Bildiyimiz kimi, Cavidin mifologiyaya, folklor və tarixə böyük marağı olub. Xüsusən də Şərq tarixini, İslam və Osmanlı tarixini dərindən bilib. Qələmini daha çox bu sahədə işlədib, tez-tez Şərq tarixinə müraciət edib. Əsərlərində türkün ən xarakterik qəhrəmanlarını yaradıb. Allahın, Peyğəmbərin yerini Leninin, Stalinin tutduğu bir zamanda, Cavid ədəbiyyatda "Peyğəmbər"də Peyğəmbər, "Seyx Sənan"da Şeyx Sənan, "Topal Teymur"da Əmir Teymur yaradıb. Yazdıqlarını o dövrdə türk yaddaşının təzələnməsi, milli yaddaşın oyandırılması naminə yazıb. "Topal Teymur"da türk birliyinə qarşı dövlət siyasəti səviyyəsində olunan rus müdaxiləsinə etiraz edib. Onun yaratdığı silsilə xarakterlər və ideyalar sistemi Türklük və Milli ideologiya nəzəriyyəsinin bütün tərəflərini yansıdır. Cavid Turan adlı məmləkətin sakinidir. Bu məmləkətin qəhrəmanları Turan sakinləridir. Bu məmləkətin sakinlərinin dini islam, kimliyi Türk, dili Türkcedir.

### *Hüseyn Cavidi Türkiyədə hansı əsəri ilə tanıyırlar? Ümumiyyətlə, qardaş ölkədə Azərbaycanın söz-sənət adamlarına hansi prizmadan yanaşırlar?*

Hüseyn Cavid Türkiyədə tanınır, oxunur və sevilir. Hələ keçən əsrin əvvəllərindən Hüseyn Cavidin Sırat-ı Müstakim, Kardeş köməyi, İctihad, Yeni məcmuada şeirləri nəşr olunub. Yavuz Akpınar, Erdoğan Uyğur, Ahmet Bican Ercilasun, Yusuf Gedikli, Fahrettin Kırzıoğlu, Mustafa Hakkı Türkekul, Ənvər Uzun, Banuçiçek Kırzıoğlu kitab və məqalələr yazıb,

ensiklopediyalarda haqqında oçerklər yazılıb.

Qaldı kı, qardaş ölkədə Azərbaycanın söz-sənət adamlarına hansi prizmadan yanaşma məsələsinə bu barədə də fikrim müsbətdir. Bu gün Türkiyə bizim üçün əlçatmaz deyil. Şair və yazarlarımız orada dərc olunur və oxunurlar. Düşünürəm ki, bu əlaqələr daha da güclənməlidir.

***Türkdillin ölkələrdə keçirilən elmi konfranslar, ədəbi görüşlər ümumi türk dünyasına hansı töhfələri verir?***

Təbii ki, keçirilən elmi konfransların həm elm adamlarının bir-birini tanıması baxımından, həm də fikir mübadiləsi baxımında əhəmiyyətlidir. Mənim də elmi yaradıcılığımda digər ölkələrin alimləri ilə əməkdaşlıq da mühüm yer tutur. Mən öz ixtisasım üzrə Bolqarıstan, Türkiyə, İraq, Rusiya, Makedoniya, Kosova, Arnavutluq, İtaliya kimi ölkələrin alimləri ilə əlaqə saxlayır, beynəlxaq konfrans və qurultaylarda elmi məruzələrlə çıxış edirəm. Məqalələrim Rusiya, İtaliya, Türkiyə, İran, Kosova, İraq, Makedoniya, Arnavutluq, Braziliya, Ukrayna və Koliforniyada elmi jurnallarda nəşr olunub. Qatıldığım konfranslar əsasən Türk dili və ədəbiyyatı, bəzən də tarix ağırlıqlı olur. Hansı olkədən qatılmağımıza baxmayaraq, araşdırmalarımız Türk dünyasını əhatə edir. Türk dili və ədəbiyyatının dünəni, bu günü və gələcəyindən danışılır. Mən çox sayda beynəlxaq elmi konfrans və simpoziumların iştirakçısı olmuş, elmi məruzələr etmişəm. Həmçinin Türkiyədə, Balkanlarda təşkil olunan konfransların təşkilində və rəhbərliyində Azərbaycanı təmsil etmişəm. Bu konfranslar bütün Türk dövlətlərindən gələn alimlərin bir-biri ilə tanışmasına və əlaqələr yaranmasına xidmət edir.

***Türk dünyasından tanıdığınız elm, ədəbiyyat adamları haqqında nə deyə bilərsiniz?***

Türk Dünyasında tanıdığım elm adamları çoxdur. Məsələn, Vizyon universitetinin professoru Atilla Jorma və xanımı Sevil İrəvanlı, Priştina universitetinin professoru İrfan Morina, Tiran universitetinin professoru Lindita Xhanari Latifi, professor Danuta Chmielowska, professor Elfina Sibgatulina, Dokuz Eylül Üniversitetinin professoru Mustafa Daş, doçent Dilşen İnce Erdoğan, Atatürk Universitetinin professoru Kərəm Karabulut, **Erzincan** Binali Yıldırım Üniversitetinin professorları Abdulkadir Gül və Bilgə Kağan və s. Bu siyahını istənilən qədər genişləndirmək də olar.

***Heydər Əliyevlə Atatürkün adı həmişə qoşa çəkilir. Hər iki lider xalqı qarşısında əlindən gələni əsirgəməyib. Bu il Heydər Əliyevin 100 illik yubileyi ölkəmizdə və Türk dünyasında yüksək səviyyədə qeyd olunur. Heydər Əliyevin 100 illik yubileyinə sizin töhfəniz nədir?***

Hər iki şəxsiyyət: Mustafa Kamal Atatürk və ümummilli lider Heydər Əliyev tarix yazan və tarixdə yaşayan dünyaşöhrətli siyasi liderlərdir. Azərbaycan tarixşünaslıq elminin yaradıcısı Abasqulu Ağa Bakıxanov yazır: “Tarix elə bir danışmayan natiqdir ki, sələflərin vəsiyyətlərini… xələflərə bildirir, ehtiyac və rifah səbəblərini, tərəqqi və tənəzzül yollarını anladır… Tarix elmi dünyanın təcrübəsini bizə kəşf edir.” Bilirsiniz ki, “Danışmayan natiq”in toplanmasında və qorunub saxlanılmasında muzeylər müstəsna əhəmiyyət kəsb edir.

Əbu Turxan yazır ki, “Bəzən sən yolu seçirsən, bəzən də yol səni.” Taleyimə yazılan yol 1999-cu ildə məni Naxçıvanda yenicə yaradılmış “Heydər Əliyev muzeyi”nə gətirdi. Muzey 10 may 1999-cu ildə, ümummilli liderin anadan olduğu tarixdə fəaliyyətə başlamışdır. Əvvəlcə ekskursovod, 2000-ci ildən direktor vəzifəsində çalışdım. Muzey ümummilli liderin şərəfinə Azərbaycan Respublikasında yaradılmış ilk muzey kimi, həmçinin ümummilli liderin həyat və fəaliyyətinin, ictimai-siyasi, elmi-nəzəri, dövlətçilik irsinin, azərbaycançılıq məfkurəsinin öyrənilməsi, araşdırılması, təbliği və gələcək nəsillərə çatdırılmasında xüsusi əhəmiyyət kəsb edir. Heydər Əliyev muzeyinin ekspozisiyasında sərgilənən eksponatlar ulu öndərimizin yaşadığı şərəfli həyat yolunu və amalını əks etdirməklə yanaşı, Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvan Muxtar

Respublikasındakı fəaliyyətini, Ali Məclisin sədri kimi gördüyü işlərdən, həyata keçirdiyi tədbirlərdən, qəbul etdiyi mühüm əhəmiyyətli qərarlardan, sərəncamlar, sənədlər, fotolar, filmlər, albomlar və s. Naxçıvanın ən ağır blokada vəziyyətində yaşadığı günlərdən "danışan natiq"lərdir. Muzeyə gələn qonaqlara burada nümayiş etdirilən fotolar, stendlərdə qorunan qərarlar haqqında məlumat vermək mənim üçün həm məsuliyyət, həm də şərəf idi. Muzeyə gələn qonaqların sayı-hesabı yox idi. Respublikaya gələn qonaqlar; səfirlər, Millət vəkilləri, nazirlər, xarici qonaqlar, jurnalistlər və s. böyük bir maraqla muzeyi ziyarət edir, yüksək fikir bildirirdilər. Muzeyin ən yaddaqalan, unudulmaz günü Naxçıvan MR 75-illik yubileyi münasibəti ilə keçirilən bayram şənliklərində iştirak etmək üçün Naxçıvana gələn ümummilli lider Heydər Əliyevin 1999-cu il oktyabrın 13-də muzeyə gəlməsi, ekspozisiya ilə tanış olması oldu. Heydər Əliyev böyük şəxsiyyət olmaqla yanaşı, həm də çox səmimi insan idi. Həmin gün sevincimizin həddi-hüdudu yoxdu. O gün həyatımızın ən yaddaqalan günü oldu. Doğrudur, sonralar da qatıldığım qurultaylarda (20-22 noyabr 2001-ci il YAP II qurultayı və 2003-cü ildə keçirilən Azərbaycan qadınlarının II qurultayı), müşavirələrdə, sesiyalarda bu böyük şəxsiyyəti görmək, çıxışlarını, tövsiyələrini dinləmək şərəfinə nail oldum. Lakin muzeydə ulu öndərlə keçirdiyimiz görüş ömürlük hafizəmə yazıldı. Ümummilli liderin müzeyi ziyarət etdiyi günün təəssüratı uzun zaman yaddaşımdan silinmədi və mən o gün ümummilli lider Heydər Əliyevə 3 şeir həsr etdim. Məgər ümummilli lideri yaxından görmək, o böyük şəxsiyyətin tövsiyələrini dinləmək, ondakı səmimiyyətə heyran olmaqdan keçirmiş şeirin yaranma prosesi. Şeirlərdən birinə Naxçıvan MR Əməkdar İncəsənət xadimi Şəmsəddin Qasımov musiqi bəstələdi. Mahnı ümummilli liderin 80 illik yubileyində xor tərəfindən ifa olundu. Elə həmin ildə keçirilən "Heydər Əliyev siyasəti, Heydər Əliyev müdrikliyi" müsabiqəsinin qaliblərindən biri oldum. Ümummilli lider Heydər Əliyevin 80 illik yubileyinə həsr olunan müsabiqədə "Ən yaxşı analitik yazılar üçün" ayrılan mükafata layiq görüldüm.

Bu il mən də ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar olaraq "Azərbaycanda muzeylərin yaradilmasının memari: Naxçıvanda Heydər Əliyev muzeyi" adli məruzə ilə H.Cavidin ev muzeyində muzeylər gününə həsr edilən konfransda iştirak etmişəm. Mənim ümummilli liderlə bağlı xatirələrim Elnarə Akimovanın təqdimatında "Ədəbiyyat" qəzetində yayınlanıb. "Ulu öndər öz müəllimlərinin xatirəsini həmişə uca tuturdu" adlı yazım "Mədəniyyət" qəzetində, "Heydər Əliyev: Ümum Təhsil Məktəblərində qazanılan biliklər, məktəb və müəllim" Carçı TV-də, "Naxçıvanda Heydər Əliyev muzeyi: Ulu öndərə sonsuz ehtiramdan yaranıb" adlı yazım " 525-ci qəzetdə çap olunub. 22-23 noyabr 2023-cü ildə Ağsuda keçiriləcək "Heydər Əliyev ili"nə həsr olunan Bələdiyyələr tarixi I Beynəlxalq Gəgəli simpozyumunda "Heydər Əliyev və Naxçıvan (1990-1993)" adlı məruzə ilə iştirak edəcəyəm. Yubiley tədbirləri ilin sonuna qədər davam edəcək. Biz də yeni-yeni yazılarla öz töhfələrimizi verəcəyik.

***Şeir yazmaq, içinizi misralara tökmək mənən rahatlanmaq deməkdir. Sevdiyiniz söz sahibləri kimlərdi? Və sevdiyiniz bir bənd şeirlə söhbətimizi tamamlaya bilərikmi?***

Həqiqətən şeir yazmaq mənəvi ehtiyacdır. Mən özümü şair saymasam da bir zamanlar çok şeir yazmışam. İçimi tökmək, yüngülləşmək üçün. Şeir yazmaq xüsusi bir istedad tələb edir. Hər kəs şeir yaza bilər, amma hər kəs şair ola bilməz. Şeir oxumağı çox sevirəm. Ən çox oxuduğum Məmməd Araz, Nüsrət Kəsəmənli, Ramiz Rövşən, Rəşad Məcid, Salam Sarvan, Mahirə Nağıqızı, Qulu Ağsəs, Hüseyn Bağıroğlu, mərhum Zərdüşt Səfi və başqalarıdır. Son zamanlar tədbirlərdə Ramiz Rövşənlə iki dəfə görüşmək qismət olub. Onun "Analar aldatdı bizi" və "Üz tutduğum adamlar" şeirləri şüuraltıma həkk olunub. Hər gün maqnitafon valı kimi beynimdə səslənirlər:

"Üz tutduğum adamlar da
Üzümə durdular mənim.
Bir quyuya salladılar,

İpimi qırdılar mənim.
Yalandan yaş axıtdılar,
Kəfənimi toxutdular,
Yasinimi oxutdular,
Duamı qıldılar mənim.
O quyu necə dardı, dar!
Mən çıxanda mat qaldılar,
Yenə könlümü aldılar,
Dostlarım oldular mənim..."

Amma bu müsahibə bir qadın dərgisi üçün alınır və gözəl xanım, gözəl şairəmiz tərəfindən alınır. İstəyirəm söhbəti sizin misralarınızla bitirim, çünki Sizin şeirləriniz mənimlə danışır.

Mən yolu tutub getdim,
Sənsə mənim izimi.
Mən səni qırıb getdim,
Sənsə mənim dizimi...

Günəşi saldıq tora,
Aya kələk gəldik biz.
Gah iblisin özüydük,
Gah da mələk gəldik biz.

Yolumuzu su kəsdi,
Bizsə əhdi, ilqarı.
Havalar soyuq keçir,
Günəş əritmir qarı...

Daş olub, başa dəydik,
Ovcumuzda sıxıldıq.
Nərdivanı adladıq,
Biz ürəkdən yıxıldıq.

Yollarmı yubatmışdı,
Yoxsa Tanrı, bilmirəm.
İrəli yox... geri isə
Addım ata bimirəm...

***Türkay Edebiyat dergisi ile Türk dünyasına nece yıllar hizmet edesiniz.***

Təşəkkür edirim Təranə xanım sizlərlə birlikdə neçə sayılara inşallah.






## Beyhan Gözükara

# İhtiyacım Var

Sensiz kalan gönül bahçemde, artık bülbül öter mi?
Gidişinle sönen ocağım sensiz hiç tüter mi?
Yükledikçe, yükledin dertleri çekmekle hiç biter mi?
Sana aşık bu beden sensiz hiç mutluluğa gider

Sana ihtiyacım var ne olur anlasana.
Neler bıraktık geride dönüp te bir baksana.
Dünü,yarını boş ver bugün için geç kalmasana.
Sana ihtiyacım var birazcık bana acısana.

Paylaşırdım seninle her derdi her günahı.
Bekleme artık gelmek için sabahı.
Aşk üstüne yazılmış bu dünyanın kitabı.
Dön artık gelişinle sevindir büyük Allah'ı

## Nailə Şahverdi

# Yuxu Ver Mənə

Allah'ım, bu gecə yuxu ver mənə,
Elə bir yuxu ki, sakitçə yatım.
Xoşbəxtlik hissinə qərq olum yenə,
Bu gecə həsrəti kənara atım.

Qoy həmin yuxuda açılsın çiçək,
Sərt qışın yerinə bahar, yaz gəlsin.
Bu xoş duyğularla dincəlsin ürək,
Qəlbim sakitləşsin, üzümsə gülsün.

Sevgimiz dolaşsın qoy diyar-diyar,
Məhəbbət nəğməsi qəlblərə dolsun.
Mənimlə görüşə gəlsin gözəl yar,
Həsrətimiz bitsin, yanımda qalsın.

**Sevinc Azadlı**

## Uşaq İllərim

Hardasan ay mənim uşaq illərim,
Darıxdım bilirsən, yaman darıxdım.
Hər yaşım artdıqca bağrımın başın,
Əritdi illərim zaman, darıxdım.

Ömrümə biçilən yaş hədlərimin,
Qayğısız, sevincli, qısası oldun.
Yük altda əzilən yorğun ruhumun,
Özləmi, həsrəti, tasası oldun.

Ay mənim ağlımda möhürlənənim,
Yerin zaman keçib, amma dolmayıb.
Nə qədər bəxtəvər həyat sürsəm də,
Sənin tək qayğısız illər olmayıb.

Ağzımın dadı da, duzu da səndin,
Ləzzətin hələ də damagımdadır.
Nə qədər yaşamaq eşqim sönsə də,
Gülüşüm yenə də dodağımdadır.

## Mahirə Nağıqızı

# Sevərəm Ömrüm Boyu

Mən səni sənin kimi,
Bütün sevənlər kimi,
Sevə bilmərəm, gülüm,
Sevə bilmərəm, canım!

Mən Leyli də deyiləm,
Dolanam səhraları,
Nə də Şirin deyiləm,
Yardıram qayaları.

Mən nə Gülgəz Pəriyəm,
Nə Kərəmə Əsliyəm.
Dastanlara sığmayan,
Heç yerdə yazılmayan,
Bir eşq pərvanəsiyəm.

Mən səni özüm kimi,
İkicə gözüm kimi,
Sevirəm desəm azdır,
Dünya səninlə yazdır.

Qoy söyləyim düzünü,
Doğrusu, mən bilmirəm,
Heç bu sevmək sözünü,
Ya sənə gəlməyim var,
Ya da sənin uğrunda
Dünyadan köçməyim var!

Mən səni sənin kimi,
Bütün sevənlər kimi,
Sevə bilmərəm, gülüm.
Mən səni özüm kimi,
İkicə gözüm kimi,
Sevərəm ömrüm boyu,
Sevərəm ömrüm boyu!

## Eluca Atali

# Böyükdüm

Arxamca daş atdılar,
saymadım!
Saymaya-saymaya böyüdüm.
Bir gün acıqlanıb böyüyünü atdılar,
lap böyüyünü.
Onda daha böyükdüm!
Gördüm, özümü görməzliyə vurdum.
Saymadığım üçün
ünvanı dəyişdi.
Daş gəlib başa dəymək əvəzinə,
daş gəlib
daşa dəydi.
Daş daşa dəyəndə
nə yaman səs çıxırmış?!
Səsindən yiyəsi həşirə düşdü...

## Rânâ İslam Değirmenci

# Gün Doğmadan Ay Balam -1-

Bir an, saatlerdir mumun titrek ışığı altında işlediği gergeften başını kaldırdı Şîve Naz… Cumbalı penceresinden, büyük evlerinin arka bahçesini bile görmeden ufuk çizgisine daldı gözleri… Oysa bahçede onunla diktiği lale soğanları vardı. Lale soğanının hatırına gelmesiyle birlikte iğne eline battı. Ondan yalnızca bir “ahh” duyuldu, gecenin sessizliğinde…

O günü düşündü…

Doğan bahçede yanına gelmiş ve yavaşça:

“Baban bu lale soğanlarını ekmemizi buyurdu” diyebilmişti sadece… İlk defa o gün, Doğan’ın gözlerinde bir keder okumuştu kız…

Aslında babasının ondan Doğan’la birlikte bir şeyler yapmasını istemesi, hiç de yeni ve hiç de tuhaf bir durum değildi. Tam sekiz sene, şu yanındaki delikanlı ile beraber hayatın birçok renginden ders almışlardı. Ama o gün hava bir buruktu; Doğan’ın sesinde bir garip, bir içli nağme vardı.

Hayat dersleri! Neler öğrenmemişlerdi ki birlikte? Ata binmek, kılıç kullanmak, ok atmak, tohum ekmek, bahçe sulamak, çini boyamak, sülüs yazı yazmak, aruzla gazeller ve murabbalar düzmek, ünlü mesnevîleri usûlüyle okumak, ney üflemek, mûsikînin o ince makamlarıyla besteler yapmak, klasik eserleri güzel sesleriyle terennüm etmek. Hatta cirit atmayı, nakkaşlığı ve güvercin beslemeyi bile birlikte öğrenmişlerdi.

Ufuğu seyre dalarken Naz kız, gözlerinden yanağına süzülen iki damlanın işlediği yastığa düşmesine fırsat ermeden elinin tersiyle gözlerini sildi…

…

Yeniden uzaklara daldı…

Doğan’ın evden ayrıldığı gün, Doğan’ın dilinden nelerin dökülmesini ummuştu oysa. Fakat o kara yağız delikanlı lale soğanı ekmelerinden az sonra ona dönmüş, tek bir söz söylemişti:

“Uykuya varmadan, gökyüzünün sesini dinle!”

Sözünü bitirir bitirmez de arkasına bir an olsun bakmadan gitmişti. O sözden sonra bir daha da Doğan’ı hiç görmemişti kız…

Bir bilseydi Doğan; ah, bir bilseydi… Şîve Naz ne kadar da üzülmüştü o gün. Anlam veremediği o tek cümlenin yerine “beni bekle; geleceğim, bir gün döneceğim; bizi bekle, mendilin bende, onu saklayacağım; beni unutma” manasına gelen daha binlerce çeşit sıcak söz özlerken Doğan’dan; Doğan şu içli cana, umarsızca, kuru bir öğüt verip gitmişti. Hem de ne saçma söz:

“Uykuya varmadan, günün ilk ışıklarında gökyüzünün sesini dinle!..”

Şîve Naz geceler boyu ağlamıştı, Doğan gittikten sonra… Günlerce yatağından çıkmadı; Kalfa Ana’sının yaptığı o şifalı şuruplar bile derdine derman olmadı. Ama bir gün, yarı baygın yatakta yatarken Naz Kız, rüyasında nakış işleyen ay yüzlü bir hanımı hayal meyal gördü. Hanım ona “Kalk, renkleri işle ve Doğan’ın sesine kulak ver; günü dinle!” diyordu. Kız, birdenbire ayaklandı; canını dişine takarak her gün nakış işlemeye başladı. Öylesine delicesine nakış işliyordu ki nakışa gece başlasa sabahın olduğunu anlamıyordu. Yine de içten içe ağlıyordu kız. Onun ağlamasına tanıklık edenler, yalnızca elindeki bu gergef ve ona can veren şu renkli iplikleriydi. Mum ise titrek, hayatta olanları dinliyordu…

Gergefle çok güzel nakışlar işlerdi Şîve Naz! Tıpkı annesi gibi... Aslında tıpkı annesi gibi nakış işlediğine kendi gözleriyle şahit olamamıştı. Çünkü annesini hiç ama hiç görmemişti. Hayatta tek şahit vardı bu benzerliğe; Kalfa Ana…

Şîve Naz’ın babası Tımarlı Sipahi Ferhad Bey, bir sefer sırasında Üsküp’te gördüğü Ay Sema’ya gözünün değdiği anda tutulmuş; on üç yaşındaki bu güzeller güzelini hiç vakit geçirmeden haremine almıştı. Büyük bir aşkla sevmişti Ay Sema’yı Sipahi… Ay Sema da Ferhad’ı… Ay Sema’nın ömründeki tek dileği, eşine bir erkek çocuk vermekti. Fakat bir süre sonra oğlanlarının yaşamadığını anladı genç çift. İkisi de çok üzüldü. Ferhad Bey, üzüntüsünü belli etmemeye çalışıyordu, o dünya güzeli eşine. Ay Sema da üzülüyordu, hem de çok. Kaç kez Bey’ine dönüp de:

“Beni bırak! Sana er verecek Hatun kişi ile evlen!” diyecek olmuştu. Ferhad eşinden bu sözü her işittiğinde o güzel gözlerin taa içine bakarak:

“Bir daha duymayacağım bunu! Sen benim

dünyama doğan tek günsün ve hep öyle kalacaksın!” diyordu aşkla ve kararlılıkla…

Ay Sema, öylesine büyük bir arzuyla eşine bir oğlan vermek istiyordu ki gün geldi, hekimleri dinlemeden tekrar hamile kaldı. Bu sefer işler yolunda gidiyordu galiba… İlk defa Ay Sema’nın bebeği aylarca içinde durdu, büyüdü… Ay Sema hayatında ilk kez, eşine karşı bir kusur işlemişti; hekimlerin ona söylediğini eşinden gizlemişti. Hekimler Sema’ya” Bir daha çocuk dünyaya getirmeye kalkarsan ölürsün!” demişlerdi. Bu acı sözleri evin Kalfası duymuş muydu? Bu gerçeği kimse hiçbir vakit bilmedi!

Ve gün gelip çattığında Allah, Ay Sema’yı Ferhad’dan ayırdı; onun yerine aynı demde, Ferhad’a Ay Sema’dan yâdigâr Şîve Naz’ı bıraktı. O acı günde, huzurla gülümseyerek ölüme koşan Sema kadının son nefesinde Bey’inin ellerinden tutup da söylediği son sözleri kimse bilemedi. Evin Kalfası bile… Eşinin ölümden sonra ömrünce hiç evlenmemeye yemin eden Ferhad, kızını kucağına aldığı daha o ilk gün, söz vermişti kendine; kızını çok iyi yetiştirecekti. Ferhad’ın kızı bir insanın dünya ve ahiretle ilgili bilmesi gereken her şeyi lâyıkıyla bilecekti. Semaya baktı o yiğit adam! Ufka dönüp söz verdi… Ferhad, verdiği sözlerin eriydi…

Günler, geceler, aylar geçti; yedi sekiz yaşlarındaki küçük kız, günden güne annesine benzemeye başladı. Bir ay parçasıydı sanki kız. Babası evde yalnızca ev halkının bulunduğu zamanlarda kızını “Ay Bala!” diye çağırır olmuştu.

Zülâl Kalfa, Ay Sema ile hemen aynı yaşlardaydı. Ay Sema bu eve gelin geldiğinde o da hanımına yardım için eve getirilmişti. Zülâl Kalfa’nın evde özel bir yeri vardı. O, bu özel yerinin hep farkındaydı. Hayatını, bütün gözlerini açarak tüm gerçekliğiyle bu eve, bu evdeki insanlara adamıştı Kalfa… Bu evde rüya görmediğinden çok emindi Zülâl!.. Evin Hanımı da Bey’i de Kalfa’ya özen gösteriyorlar; onu bu evin ferdi hatta direği olarak görüyorlardı.

Zülâl Kalfa, can hanımı Ay Sema’nın ölümünden en az Bey’i kadar yıkılmıştı. Çünkü, can yoldaşı, sırdaşı, arkadaşı ayrılmıştı bu dünyadan. Canının bir parçası kopmuştu sanki. Hanımıyla eve geldikleri o ilk günden beri evin işini beraberce yaparlar, evin işi bittikten sonra cumbalı hayatta beraberce otururlardı. Kuşluk vaktinde birlikte kahvelerini içtikten sonra gergefte “Türk İşi” nakış işlerlerdi. Her ikisi de nakışlarıyla ünlü usta birer nakışçıydılar… Ama Zülâl Kalfa, ne kadar uğraşırsa uğraşsın, yalnız hanımının işleyebildiği o özel mor laleleri, bir türlü hanımı gibi işleyemiyordu. Onun işlediğinde hep bir çizgi, bir tavır, bir renk eksikti…

Zülâl Kalfa, evin direğiydi ya, canından ona kalan emanetlere gözü gibi baktı. Hanımının ölümünden sonra hem Ay Bala’ya hem de Doğan’a bakan ve özellikle ay parçasının kusursuz bir hanım olarak yetişmesini sağlayan, o oldu. Daha kız, beş altı yaşlarındayken kızın eline iğne ipliği tutuşturdu. Ay kızla tıpkı Ay Sema Hanımı ile yaptığı gibi ev işlerinden sonra Hayat’ın aynı yerinde otururur, beraberce nakış ilerlerdi. Şîve Naz’ın yeri tıpkı annesi gibi cumbalı pencereye bakan sedirdi. Ve tıpkı büyük hanımıyla yaptığı gibi küçük hanımıyla da az önce kavurdukları ve elleriyle taze taze çektikleri tanelerden peçli mangalda buram buram pişirdikleri köpüklü kahveden içerlerdi. Kahveleri içerken Zülâl, Ay Sema’yı anlatırdı Şîve Naz’a… Küçük kız, annesinin tüm hallerini, annesine ait tüm detayları dikkatle dinler; dinledikleriyle annesini hayal ederdi. O kadar detaylı anlatırdı ki Kalfa Ana’sı, annesinin hayali ona gerçek gibi gelirdi. Büyüdükçe annesine daha fazla benzemekle kalmadı Ay Kız, düşlerinde de annesini sık sık görür oldu…

Genç kız on iki on üç yaşlarına geldiğinde Zülâl Kalfa hayretler içinde kaldı. Kendisinin yıllardır Ay Sema Hanım’a iki gözü ile dikkatle baka baka başaramadığını annesini hiç görmeyen şu küçük kız başarmıştı. Şîve Naz’ın annesi ölçüsünce renkleri birbiriyle ustaca kaynaştırmayı öğrenişinin üstünden yıl geçmişti ama bu, bu bir başkaydı: Aynı mor laleler…

Seneler seneler sonra gergefte aynı mor laleler vardı. Aynı mor lalelerin aynı eğimle sol tarafa hafifçe boyun kırışı… Ve işlenen her mor lalenin taç yapraklarının tam ortasına gizlenmiş gibi duran, rengi ve şekli belli belirsiz bir küçük gül goncası… Sanki işlenen bu gül goncasının rengi her seher değişiyordu; bu bile aynıydı.

Oysa o, yıllardır Hanım’ının yanında ve Hanım’ından sonra bu motif için geceler boyu uğraşmış, bir kere olsun, bu motifi işlemeyi başaramamıştı. Kalfa “Eller” diyerek iç geçirdi birden:

“Bu ellerde ay gizli de ondan olmalı…”

Bazen Kalfa Şîve Naz’a bakar; “Karşımdaki Ay Sema mıdır acep?” diye şaşar kalırdı… Ay Sema ile Şîve Naz’ı ayırt edemez hale gelince gözleri ve elleri, kalkıp bahçeyi sulardı o demde… İşte o vakit, içi bir parça serinlerdi Kalfa’nın.

## Mələk İsmayıl

# Ay Şuşa

Diləyimiz göyə çatdı,
Azad oldun sən,ay Şuşa.
Şəhidlər cənnətdə yatdı,
Yenə həmənsən,ay Şuşa.

Nələr çəkmədi başımız,
Süzüldü gözdən yaşımız.
Göyərdi qara daşımız,
Çəkilibdi çən,ay Şuşa.

Haylar səni girov aldı,
Başını cəncələ saldı.
Oğulların zəfər çaldı,
Çatlayır düşmən,ay Şuşa.

Bülbüllərin xəstə yatdı,
Sənsiz ellər yasa batdı.
Şükür ki,əl sənə çatdı,
Cıdır düzüsən,ay Şuşa.

Görməmişəm səni hələ ,
Valeh etdin məni belə.
Göz yaşlarım gilə-gilə,
Gələcəyəm mən,ay Şuşa.

Səni görən oldu heyran,
Abadlaşır indi hər yan.
Gül açacaq Azərbaycan,
Bülbül sözüsən,ay Şuşa.

Dalğalanır bayrağımız,
Üzə gülür oylağımız.
Gur yanacaq ocağımız,
Düşmən gözüsən,ay Şuşa.

Qarabağsan,sən Vətənsən,
Bülbül səsli şeh çəmənsən.
Mələk deyir mənlik,mənsən,
Vaqif izisən,ay Şuşa.